**Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə komissiya yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə aşağıdakı tərkibdə komissiya yaradılsın:[1]

***Komissiyanın sədri***

*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Respublikasının daxili işlər naziri*
*Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*
*Azərbaycan Respublikasının ədliyyə naziri*
*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*
*Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri*
*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti*
*"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti*
*"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri.*

2. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə və Azərbaycan Respublikasının Baş Prokuroruna tövsiyə olunsun ki, komissiyanın fəaliyyətində iştirak etsinlər.

3. Komissiya bu Sərəncamın 1-ci hissəsində göstərilən torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələləri araşdırsın və iqtisadi, sosial və hüquqi aspektlərin qiymətləndirilməsinin nəticələrinə əsaslanan təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 iyun 2012-ci il
2307

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 15 fevral 2019-cu il tarixli **965** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 295**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 15 fevral 2019-cu il tarixli **965** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 295**) ilə 1-ci hissə ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın sədri**~~

~~Ramiz Mehdiyev~~ – ~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri.~~

~~**Komissiyanın üzvləri:**~~

~~Abid Şərifov~~ – ~~Azərbaycan Respublikası Baş nazirinin müavini~~

| | | |
|---|---|---|
| ~~Ramil Usubov~~ | – | ~~Azərbaycan Respublikasının daxili işlər naziri~~ |
| ~~Ziya Məmmədov~~ | – | ~~Azərbaycan Respublikasının nəqliyyat naziri~~ |
| ~~Fikrət Məmmədov~~ | – | ~~Azərbaycan Respublikasının ədliyyə naziri~~ |
| ~~Əli Əsədov~~ | – | ~~Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisi~~ |
| ~~Fuad Ələsgərov~~ | – | ~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri~~ |
| ~~Əli Həsənov~~ | – | ~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri~~ |
| ~~Şahin Əliyev~~ | – | ~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri~~ |
| ~~Kərəm Həsənov~~ | – | ~~Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri~~ |
| ~~Qərib Məmmədov~~ | – | ~~Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri~~ |
| ~~Hacıbala Abutalıbov~~ | – | ~~Bakı Şəhər İcra Hakimiyyətinin başçısı~~ |
| ~~Rövnəq Abdullayev~~ | – | ~~Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti~~ |
| ~~Etibar Pirverdiyev~~ | – | ~~"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti~~ |
| ~~Qorxmaz Hüseynov~~ | – | ~~"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti~~ |